# Ermənistanın tarixə ləkə kimi düşən müharibə cinayətləri

**Azərbaycan Ordusu qarşısında hər keçən gün məğlubiyyətə düçar olan Ermənistan çarəsizlikdən bütün yollara əl atır. Düşmən tərəf fərarilik, əsgər analarının övladlarını cəbhəyə göndərməkdən imtina etməsini, orduya uşaqların, döyüşməyə yaramayan qocaların gətirilməsini, özbaşınalığı, rüşvət verməklə və koronavirus adı ilə ordudan yayınma hallarını, canlı qüvvə çatışmazlığını muzdluların, terrorçuların, döyüşlərə cəlb olunması ilə kompensasiya etmək istəyir. Bütün bunlar isə bir aya yaxındır davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistan ordusunun acınacaqlı vəziyyətə düşdüyünü açıq şəkildə nümayiş etdirir.**



Azərbaycan tərəfi rəsmi şəkildə bəyan edib ki, hərbi əməliyyatlar zamanı zərərsizləşdirilmiş döyüşçülər arasında çoxlu sayda Suriya, Livan, ABŞ, Kanada, Yunanıstan və Fransadan gələn muzdlular müəyyən edilib və onların Ermənistan tərəfindən münaqişə bölgəsinə gətirilməsi haqqında sübut və dəlillər aşkarlanıb. Bundan başqa, Ermənistanın təşəbbüsü ilə PKK terror təşkilatının işğal olunmuş Azərbaycan torpaqlarında hərbi bazalar qurması və Azərbaycana qarşı vuruşması ilə bağlı əsaslı məlumatlar mövcuddur. Xarici döyüşçülərin və muzdluların Ermənistan silahlı qüvvələri sıralarında olması barədə bir çox mənbələrdə, eləcə də "Reuters" agentliyinin reportajında təsdiqlənib. Bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" səhifəsində yazıb. H.Hacıyev bildirib: "Biz dəfələrlə bildirmişik ki, Livandan və Suriyadan olan muzdlular, eləcə də PKK terrorçuları Ermənistandadırlar".

"Reuters" agentliyinin yaydığı məqalədə qeyd edilir ki, Yerevanda yerli və xarici könüllülərin təlimi ilə məşğul olan Karapet Agacanyan "Reuters" agentliyinə onun düşərgəsində təxminən 10 Livan ermənisinin təlim keçdiyini söyləyib. Onun sözlərinə görə, sentyabrın sonunda döyüşlər başlayanda onlar cəbhə bölgəsinə getmək üçün Beyrutdan gəliblər: "Çoxsaylı erməni əsilli livanlılar döyüşlərdən hələ bir neçə ay əvvəl Beyrutdan İrəvana gedirdilər. Livandakı iqtisadi böhran və bunun ardınca avqust ayında Beyrut limanında təxminən 200 insanın ölümü ilə nəticələnən partlayış miqrasiyanı gücləndirdi. Ermənistan tərəfindən Azərbaycana qarşı xarici muzdlular vuruşurlar. Buraya xaricdən gətirilən erməni millətindən olan muzdlularla yanaşı, Suriya və İraqdan gətirilən PKK və YPG terrorçuları da daxildir. Əli hər yerdən üzülmüş Paşinyan artıq din xadimlərini də zorla döyüşə göndərir. Halbuki bütün dinlərdə olduğu kimi, ermənilərin sitayiş etdiyi xristianlıq da zorakılığı qəti inkar edir". Bu yaxınlarda Fransanın "Liberation" qəzetinin verdiyi məlumata görə, erməni əsilli Fransa vətəndaşı, terror təşkilatı "ASALA"nın 64 yaşlı üzvü Gilbert Minasyan döyüşlərdə iştirak etmək üçün Fransadan özü ilə gətirdiyi muzdlularla birlikdə Qarabağdadır. Almaniyanın tanınmış qəzeti "Der Freitag" da bir neçə gün əvvəl "PKK muzdluları" adlı bir məqalə yayımlayıb və döyüşlərdə Ermənistan tərəfdən çoxlu sayda PKK terrorçularının iştirak etdiyi bildirilib.

Ermənistan ordusunun bütün bunlar azmış kimi müharibə başlayan gündən dindarları orduya cəlb etməsinin də şahidiyik. Ermənistan hökuməti fərariliyin qarşısını almaq üçün hərbçiləri motivasiya etmək məqsədilə keşişlərin köməyindən istifadə edir, əsgərlərə xaçı öpdürür. Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsun Hovanisyan açıqlamasında bildirib ki, döyüşlərdə iki keşiş-Qazaryan və Nərsisyan aktiv şəkildə iştirak edib. O, döyüşlərdə iştirak edən keşişlərin fotolarını da yayıb. Erməni keşişləri hətta humanitar atəşkəsin başlanmasından bir neçə saat öncə bütün ermənilərin katolikosu II Qaregin erməniləri müharibəyə qoşulmağa, azərbaycanlıları öldürməyə çağırıb. Bununla da, Ermənistan bir daha təsdiq etdi ki, Qarabağ müharibəsində erməni keşişləri iştirak edirlər. Erməni dindarlar silaha sarılaraq gəncləri düz yola səsləməkdən, qan tökülməsinin qarşısını almaqdansa "döyüşə gedin" kimi antaqonist çağırışlar edir. İşğalçı ölkə dini siyasi və terror məqsədləri üçün bir vasitə kimi istifadə edir.

Bütün bunlarla da kifayətlənməyən Ermənistan təxribat xarakterli addımların davamlı olaraq son bir ay ərzində mülki yaşayış məntəqələrini, o cümlədən Tərtər, Mingəçevir, Goranboy, Ağcabədi və sərhədyanı şəhərlərimizi hədəf alması, habelə üç dəfə razılaşdırılmış humanitar atəşkəs rejimini pozaraq Gəncə və son olaraq Bərdə şəhərinə etdiyi hücumlar nəticəsində çoxlu sayda mülki vətəndaşımızın, o cümlədən qadın və uşaqların həlak olduğu barədə məlumat verib. Bu hücumlar cəbhə bölgəsindən uzaqda yerləşən ərazilərdə çox sayda dinc insanın həlak olmasına və yaralanmasına səbəb olub. Onların arasında uşaq, qadın və yaşlı insanlar da var. Eyni zamanda, çox sayda mülki obyekt dağıdılıb. Ermənistanın dinc əhaliyə qarşı istifadə etdiyi ballistik raketlər və kasetli bombalar beynəlxalq hüquq tərəfindən qadağan olunub. Döyüş bölgəsindən kənarda yerləşən Göygöl rayonunun ərazisinin Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşə tutulması səbəbindən yanğın baş vermiş meşəlik ərazi bu gün səhər saatlarından da yenidən mərmi atəşlərinə məruz qalıb və nəticədə yanğın başlayıb. Həmçinin Goranboy rayonunun ərazisinin düşmən tərəfindən ağır artilleriya qurğularından atəşə məruz qalması nəticəsində də meşəlik zonada yanğın baş verib. Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində indiyədək 90 nəfərdən artıq insan həlak olub, 400-dən çox mülki insan yaralanıb. 7 ailə bütünlüklə məhv edilib, 2 ailədə uşaqlar valideynlərini itirib.

İşğal altında olan Xocavənd istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin müdafiə sahəsindəki bölmələrinə xeyli sayda fosfor tərkibli yükün gətirildiyi barədə kəşfiyyat məlumatı daxil olub. Ehtimal olunur ki, fosfor tərkibli döyüş sursatının qeyd olunan ərazilərə gətirilməsində Ermənistanın hərbi-siyasi rəhbərliyinin məqsədi, ilk növbədə, onun Azərbaycan Ordusunun bölmələrinə qarşı tətbiq edilməsidir. Ermənistan silahlı qüvvələri Şuşa meşələrində qadağan olunmuş ağ fosfordan istifadə etməklə qəsdən yanğın törətmiş və bunu Azərbaycanın üzərinə atmağa çalışmışdır. Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi qəbul olunmuş müvafiq beynəlxalq konvensiyaların növbəti dəfə kobud şəkildə pozulması və dəhşətli müharibə cinayəti aktıdır.

Azərbaycan Ordusu cəbhədə ardıcıl uğurlar qazandıqca, düşmən qüvvələrini məhv etdikcə onlar daha da aqressivləşir və məğlubiyyətlərinin əvəzini dinc şəhərləri raket atəşinə məruz qoymaqla çıxmaq istəyirlər. İşğalçı Ermənistan insanlığa və günahsız dinc sakinlərə qarşı cinayətləri, terror aktlarını davam etdirərək təkcə region üçün deyil, planetin ekoloji tarazlığı üçün də qiymətli olan təbiət abidələrini, flora və faunanı məhv edir. Bununla da Ermənistan faktiki olaraq Azərbaycan təbiətinə qarşı ekoloji terror törədir. Ermənistanın mülki əhalimizə qarşı cinayətkar terror hücumlarına Azərbaycan yalnız və yalnız döyüş meydanında layiqli şəkildə cavab verir və həlak olan mülki şəxslərimiz və şəhidlərimizin qisasını alır.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabrın 17-də xalqa müraciətində də qeyd etmişdir ki, sentyabrın 27-dən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulub: "Biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Bu, yəni sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır?".

Ekspertlər tərəfindən ikinci Qarabağ müharibəsinin getdiyi vaxt ərzində Ermənistan iqtisadiyyatına ən azı 3,5 milyard ABŞ dolları həcmində ziyan dəydiyi, ümumi daxili məhsulun (ÜDM) 13,7 milyard, rəsmi rezerv aktivlərin 2,6 milyard ABŞ dolları təşkil edən bir ölkə üçün vurğulanan rəqəmin kifayət qədər yüksək göstərici olduğu bildirilib. Analitiklər bildirirlər ki, bu gün Ermənistana "humanitar yardım" adı altında silah qaçaqmalçılığı həyata keçirilir. İndiki halda müxtəlif cinayətkar qruplarla əlaqəyə girərək, işğalçı ordunun təminatı məqsədilə silah daşınmasına çalışan ölkənin bu baxımdan imkanları da elə yüksək görünmür. Artıq Beynəlxalq Mülki Aviasiya Təşkilatı (İCAO) Ermənistana düşmən respublikanın qeydiyyatında olan təyyarələrdən silah qaçaqmalçılığında istifadə olunması barədə də məlumatlandırılıb. Bəli, İrəvana dəyəri bir neçə milyon dollarlarla ölçülən zenit-raket sistemləri və digər ağır texnika daşınması artıq sirr deyil. Aydındır ki, indiki şəraitdə ayrı-ayrı cinayətkar qruplaşmalar vasitəsilə reallaşdırılan bu siyasətin Ermənistanın gələcək iqtisadi müstəqilliyi üçün nə ilə nəticələnəcəyi də bəllidir. Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) məlumatlarından da məlum olduğu kimi, vaxtilə aparılmış bu cür qarşılıqlı anlaşmaların nəticəsidir ki, hazırda Ermənistanın strateji əhəmiyyət daşıyan enerji, infrastruktur və digər sahələri tamamilə üçüncü ölkələrdən asılı vəziyyətdədir. Ona görə də erməni cəmiyyəti və vətəndaş cəmiyyəti institutları Ermənistana cinayətkar qruplaşmalar vasitəsilə bu formada silah yardımlarının edilməsinə qarşı çıxmalıdır ki, ölkə geridə qalan cüzi müstəqilliyini də itirməsin.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

ir.